


Bu il Şərqdə ilk demokratik respublikanın – Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasının 100 ili tamam olur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı 16 may 2017-ci il tarixli Sərəncama əsasən Cümhuriyyətin yaradılmasının 100 illik yubileyi respublikada dövlət səviyyəsində geniş şəkildə qeyd edilir. Eyni zamanda, dövlətçilik tariximizə verilən yüksək dəyərin göstəricisi kimi, dövlət başçısı tərəfindən **2018-ci il "Azərbaycan Xalq Cümhuriyyəti İli"** elan edilib.

Bu məqsədlə Azərbaycan Milli Kitabxanası tərəfindən bir sıra işlər görülüb, silsilə olaraq respublika miqyaslı və beynəlxalq tədbirlər planlaşdırılıb. İlk növbədə, Azərbaycan Milli Kitabxanasının sərgi zalında **"Azərbaycan Xalq Cümhuriyyəti – 100"** adlı daimi guşə hazırlanıb, geniş ictimaiyyətin istifadəsinə təqdim edilib.

**"Azərbaycan Xalq Cümhuriyyəti – 100"** adlı metodik vəsait çap edilərək regionlarda fəaliyyət göstərən bütün Mərkəzləşdirilmiş Kitabxana Sistemlərinə çatdırılıb. Metodik nəşrdə Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) fəaliyyəti, AXC-nin Azərbaycanın dövlətçilik tarixindəki rolunun təbliği ilə bağlı kitabxanalarda müvafiq tədbirlərin keçirilməsinə kömək məqsədilə tövsiyələr verilib. Burada həmçinin Azərbaycan Xalq Cümhuriyyəti haqqında görkəmli şəxslərin çıxışlarından sitatlar, mövzu ilə əlaqədar rəsmi sənədlər, xronoloji məlumatlar, istifadə olunmuş ədəbiyyat siyahısı təqdim olunub.

2008-ci ildə AXC-nin 90 illik yubileyi ilə əlaqədar Milli Kitabxana tərəfindən **"Azərbaycan Xalq Cümhuriyyəti – 90"** adlı biblioqrafik göstərici çap edilmişdi. Biblioqrafik göstərici AXC-nin yaranması, fəaliyyəti və süqutu, onun ictimai-siyasi xadimlərinin həyat və fəaliyyəti haqqında Azərbaycan və rus dilində 1918-ci ildən 2008-ci ilə qədər nəşr edilmiş kitab və məqalələri, dissertasiya və avtoreferatları əhatə edir. Hazırda yubiley ili çərçivəsində Milli Kitabxananın əməkdaşları tərəfindən **"Azərbaycan Xalq Cümhuriyyəti"** adlı daha da təkmilləşdirilmiş yeni fundamental biblioqrafik vəsait və **"Azərbaycan Xalq Cümhuriyyəti – 100"** elektron məlumat bazası hazırlanır.

2018-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyi və "Azərbaycan Xalq Cümhuriyyəti İli" çərçivəsində bir sıra beynəlxalq tədbirlərin təşkili də planlaşdırılır. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Azərbaycan Milli Kitabxanası, TÜRKSOY təşkilatı ilə birgə Ankarada beynəlxalq elmi konfrans, **"Azərbaycan Xalq Cümhuriyyəti – 100"** adlı geniş kitab sərgisi və fundamental biblioqrafiyanın təqdimatı, eyni zamanda, **İstanbulda 37-ci Türkiyə Beynəlxalq Kitab Sərgisində və Frankfurtda 70-ci Beynəlxalq Kitab Sərgi-Yarmarkasında "Azərbaycan Xalq Cümhuriyyəti – 100"** adlı geniş kitab sərgisinin açılışı həyata keçiriləcəkdir.